# YENİ NƏŞR




Bu yaxınlarda Bakının “Təknur” nəşriyyatında işıq üzü görmüş “Dağıstan xalqlarının nağılları” kitabı respublikamızın məktəbliləri üçün yeni dərs ilinin başlanğıcında yaxşı hədiyyə olmuşdur. Gözəl tərtibatı və nəfis nəşri ilə seçilən həmin kitab nağıl həvəskarı olan geniş oxucu kütləsi üçün də maraqlıdır. Ləzgi, avar, lak, qumuq xalqlarının folklorundan götürülmüş nümunələri Azərbaycan dilinə tanınmış qələm sahibi, respublikamızın adlı-sanlı jurnalisti Natiq Səfiyev tərcümə etmişdir.

Qeyd etmək lazımdır ki, “Samur” qəzetinin yaxın dostu olan və uzun illərdən bəri onunla sıx əməkdaşlıq edən müəllif çevirdiyi ləzgi xalq nağıllarını kitaba daxil etməzdən əvvəl “Samur”un səhifələrində dərc etdirmişdir. Oxucular bir ildən artıqdır ki, Natiq Səfiyevin Azərbaycan dilinə etdiyi bu tərcümələri “Samur”un səhifələrindən oxuyurlar. “Dağıstan xalqlarının nağılları” Natiq Səfiyevin çapdan çıxmış sayca dördüncü toplusudur.

**“SAMUR”**